***UOT-811.512.162***
***Səhifə: 178-183***
*https://doi.org/10.59849/2663-8967.2025.2.178*

***Validə Abbasbəyli***
***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***
***abbaslivalide97@gmail.com***

# AZƏRBAYCAN DİLİNİN ONOMASTİK SİSTEMİNDƏ MORFOLOJİ ÜSULUN FUNKSİONALLIĞI

**XÜLASƏ**

Onomastik vahidlərdə söz yaradıcılığı dilin xüsusi bir sahəsini təşkil edir və insanların, coğrafi yerlərin adlarını, soyadlarını, təşkilat adlarını, su hövzələrinin adlarını müəyyən edən sahə kimi tədqiq olunur. Onomastika, adların mənası, yaranma prosesi, formalaşması və sosial funksiyaları ilə bağlı araşdırmalar aparan dilçilik elminin bir sahəsidir. Bu sahə həm dilçiliyi, həm də mədəniyyəti əhatə edir. Onomastik vahidlərdə söz yaradıcılığı isə həmin adların yaradılması və istifadəsi prosesinə dair məsələləri öyrənir. Onomastikanın problemləri uzun müddətdir alimlərin diqqətini cəlb edib və bu mövzu bu gün də öz aktuallığını qorumaqdadır. Dilçiliyin bir bölməsi olan onomastika leksikologiya, semantika, söz yaradıcılığı və qrammatika problemləri ilə çox sıx şəkildə əlaqəlidir.

Onomastik vahidlər söz yaradıcılığının müxtəlif üsulları ilə yaranır. Dildə yeni onimlərin yaranmasında müxtəlif sözyaratma üsullarından istifadə olunur ki, onlardan da ən məhsuldarı məhz morfoloji üsuldur. Məqalədə müasir Azərbaycan dilində morfoloji üsulla yaranmış onomastik vahidlərdən, onların dildə funksionallaşması prosesindən bəhs edilir.

***Açar sözlər:*** *morfoloji, onomastik, üsul, söz yaradıcılığı, proses.*

**Giriş:** Onomastika, adların strukturu, funksiyası, mənası, dəyişməsi və istifadəsi ilə məşğul olan elmdir. Onomastik vahidlər, müəyyən bir mədəniyyətin və ya millətin kimliyini simvollaşdırır. Məsələn, müəyyən bir coğrafi ərazidə yerli əhalinin adlarının xüsusiyyətləri həmin xalqın etnik və mədəni identifikasiyasını göstərir. Söz yaradıcılığı dillərin təbiətini və dəyişməsini göstərir, çünki dil adları təkcə dilin özünün deyil, həm də onun inkişaf tarixinin və mədəniyyətinin izlərini saxlayır. Onomastika və onun söz yaradıcılığı sahəsi çox geniş və maraqlı bir tədqiqat sahəsidir. Bu sahə yalnız dilçiliklə deyil, həm də tarix, mədəniyyət, etnologiya və sosial elmlərlə sıx əlaqəlidir. Onomastik vahidlər həm insanların tarixində, həm də mədəniyyətlər arasında əlaqələrin qurulmasında mühüm rol oynayır. Onomastik leksika müasir Azərbaycan dilinin leksik sistemində mühüm bir təbəqəni təşkil edir. Onomastik mənşəli leksika yeni reallıqları, yeni hadisələri ifadə etmək üçün geniş istifadə olunur və buna görə də bu sözlər cəmiyyətin maddi və mənəvi həyatında baş verən tarixi dəyişikliklərə qarşı yüksək həssaslığa malikdir. Bütün bunlar bu tip leksik vahidlərin öyrənilməsinə olan marağı şübhəsiz artırır. Onomastik leksikanın təhlili söz yaradıcılığı prosesində müəyyən bir standartlaşdırmanın mövcud olduğuna dair fikir yaradır.

Söz yaradıcılığı dilin lüğət tərkibini artırmaq üçün əsas vasitələrdən biridir. Bəzi alimlər hesab edirlər ki, söz yaradılması prosesində ayrı-ayrı morfemlər iştirak edir və yeni yaranan sözlər sadəcə onların birləşməsi, kombinasiya nəticəsidir [12, s.351]. Ayrı-ayrı morfemlərin mənalarının cəmi isə bu birləşmələrin semantikasıdır.

Digər alimlər isə düşünürlər ki, yeni sözlər dilin mövcud sözlərindən yaranır. Bu yanaşmaya əsasən, söz yaradıcılığı prosesi, əsas sözü müxtəlif söz yaradıcılıq elementləri ilə birləşdirməkdən ibarətdir [13, s.45].

Onomastik leksika müxtəlif üsullarla yaranmış isimlərlə zəngindir. Azərbaycan dilindəki onomastik vahidlər əsasən aşağıdakı yollarla yaranır: 1. Fonetik sözyaratma üsulu; 2. Leksik-semantik sözyaratma üsulu; 3. Morfoloji sözyaratma üsulu; 4. Sintaktik sözyaratma üsulu; 5. Abreviatura üsulu. Onomastik sözlər arasında leksik-semantik söz yaradıcılığı üsulu geniş şəkildə təmsil olunur və demək olar ki, onomastik vahidlərin bütün semantik qruplarında –antroponimlərdə, toponimlərdə, hidronimlərdə,

ktematonimlərdə və s. istifadə olunur. Azərbaycan dilində söz yaradıcılığı prosesi mürəkkəb və çoxşaxəli olsa da, onomastik leksikanın yaranmasında ən çox istifadə edilən üsul morfoloji üsuldur.

Azərbaycan dilindəki onomastik vahidlərin kök və başlanğıc formalara sözdüzəldici şəkilçilərin artırılması ilə yaradılması fikri heç də bütün dilçilər tərəfindən birmənalı qarşılanmır. Mübahisələrin mərkəzində əsasən bu fikir dayanır: "dildəki xüsusi sözlərin-onomastik vahidlərin yaranması üçün xüsusi şəkilçi formantlar mövcuddurmu?" və yaxud "onomastik vahidlərin yaranmasında morfoloji üsuldan istifadə olunurmu?". Bu haqda A. Qurbanov yazır: "Azərbaycan dilçiliyində belə bir yanlış meyl vardır ki, toponimlərin əmələ gəlməsi tamamilə sırf leksik və semantik hadisələrlə bağlıdır. Burada heç bir morfoloji amil rol oynamır. Müəyyən bit toponimə çevrilmiş söz ona qədər kök və şəkilçi şəklində mövcud olmuşdur" [8, s.320]. A Qurbanov bu yanlış meyillə qismən razılaşsa da, onomastik vahidlərin yaranmasında şəkilçi morfemlərin varlığını tam anlamıyla qəbul edir. Leksik-semantik üsul onimlərin yaranmasında nə qədər aktiv rola malik olsa da, morfoloji üsulla söz yaradıcılığı ümumişlək sözlərin yaranmasında olduğu kimi onomastik vahidlərin əmələ gəlməsində də o qədər məhsuldardır. Onomastik vahidlərdə morfoloji üsulla söz yaradıcılığı — adların yaranmasında və formalaşmasında istifadə edilən metodlardan biridir. Morfologiya, sözlərin quruluşunu və onlara daxil olan hissələri –morfemləri araşdıran dilçilik sahəsidir. Morfoloji üsulla söz yaradıcılığı, yeni adların və ya onomastik vahidlərin meydana gəlməsində morfemlərin, yəni kök sözlərin, şəkilçilərin və ya birləşmələrin istifadəsini əhatə edir.

Morfoloji üsulla söz yaradıcılığı onomastik vahidlərin yaranmasında vacib rol oynayır, çünki bu üsul adların mənasını, xüsusiyyətlərini və tarixi fonlarını formalaşdırır. Adların yaranması morfologiyanın bir hissəsi kimi, adın həm fonetik, həm də semantik quruluşunu inkişaf etdirərək cəmiyyətin sosial və mədəni aspektlərini əks etdirir [11].

Sözdüzəldici şəkilçi morfem–düzəltmə sözün tərkibində birbaşa iştirak edən ən vacib komponentlərdən biridir. Bildiyimiz kimi, Azərbaycan dili iltisaqi dildir. Dilimizin morfoloji quruluşunu leksik şəkilçilərsiz təsəvvür etmək mümkün deyildir. Lakin Azərbaycan dilində işlənən sözdüzəldici şəkilçilərin heç də hamısı onomastik vahidlərin yaranmasında iştirak etmir. Ümumiyyətlə, onomastik sistemdə iştirak edən sözdüzəldici şəkilçilərin sayı azdır. Burada bir nüansa da diqqət çəkmək lazımdır ki, onomastik sistemdə istifadə olunan leksik şəkilçilərin heç də hamısı bütün növ onimlərdə eyni intensivliklə istifadə olunmur. Məsələn, əgər *–lı*$^{4}$*, –ış*$^{4}$*, –ı*$^{4}$*, –ım*$^{4}$*, –ar*$^{2}$ *,–maz*$^{2}$ , *–ə* morfemləri daha çox antroponimlərin və etnonimlərin yaranmasında aktivlik göstərirsə, *–lar*$^{4}$*, –ıstan*$^{4}$*, –çı*$^{4}$*, –an*$^{2}$ *'–ca*$^{2}$ morfemləri toponimlərin yaranmasında intensiv şəkildə iştirak edir.

Azərbaycan dilinin onomastik sistemində ən intensiv şəkildə işlənən sözdüzəldici şəkilçilər aşağıdakılardır:

*–lıq*$^{4}$ bu məhsuldar morfem Azərbaycan dilinin onomastik sistemində intensiv şəkildə rast gəlinir. Şəkilçi türk dillərində qədim dönəmlərdən bəri işlənməkdədir. Q.Mahmudova bu şəkilçi morfemin XI əsrdə Mahmud Kaşğari "Divan"ında, XIV əsr İbn Mühənna lüğətində işləndiyini qeyd edir [9, s.193]. Azərbaycan dilində on bir növ müxtəlif mənalı ad əmələ gətirən bu şəkilçi morfem onomastik sistemdə də fəal mövqeyə malikdir. Qərbi Azərbaycanın Qafan rayonunda yerləşən *Qozluq dərəsinin* adında və onlarla digər onomastik vahidlərdə bəhs olunan şəkilçi hifz olunur.

*–lı*$^{4}$ bütün türk dillərində aktiv şəkildə işlənən bu şəkilçiyə Azərbaycan dilində də intensiv şəkildə də rast gəlinir. Bu şəkilçi morfemin yaranması haqqında tədqiqatçılar arasında ümumi bir fikir formalaşmışdır ki, *-lı* şəkilçi morfemi *–lıq*$^{4}$ şəkilçi morfeminin son samitinin düşməsi nəticəsində əmələ gəlmişdir. Onomastik vahidlərdən əsasən antroponimlərin və toponimlərin yaranmasında iştirak edir. Məsələn, Qanbay *Qasımlı* şahmat taxtasında Mahiri mat vəziyyətinə saldı [3, s.7]; Səriyyə xanım,–dedi,– gələcəkdə bu Zoğallı körpünün(körpü salınan yerdə çoxlu müşə zoğalı olduğu üçün biz ona "Zoğallı körpü" adını qoymuşduq) gəlib keçəndə bizi yada salarsan [4, s.22].

*–lar*$^{4}$ morfemi qrammatik şəkilçidir. İsimlərə və yaxud isimləşmiş nitq hissələrinə artırılaraq cəmlik anlayışı bildirir. Lakin bu qrammatik morfem məkan bildirən onomastik vahidlər yaradarkən leksik şəkilçi funksiyası yerinə yetirir. Ş. Hüseynov –lar cəmlik şəkilçisinin sifətlərə, saylara, zərflərə artırıldığından bəhs edir [6, s.134]. Şəkilçi Azərbaycan dilinin onomastik sistemində geniş sahəyə malikdir. Antroponimlərin, etnonimlərin, toponimlərin, hidronimlərin, zoonimlərin yaranmasında –lar morfemini müşayiət etmək mümkündür. A. İsmayıllı yazır ki, Ağdaş rayonunun kəndlərindən birinin adı "Qurdlar" dır [7, s.90]. Qərbi Azərbaycanın Qarakilsə kəndində *Şıxlar, Məliklər* etnotoponimlərinin,

onlarla digər məkan adlarında *–lar* şəkilçi morfemi mühafizə olunur. Araşdırma zamanı müşahidə etdik ki, *-lar* şəkilçi morfemi daha intensiv şəkildə məkan adlarının –toponimlərin tərkibində rast gəlinir.

*–ıstan*[4] şəkilçi morfem əsasən yer, ölkə, məkan adı bildirməyə xidmət göstərir. Bəhs olunan şəkilçinin özünəməxsus özəlliyi ondan ibarətdir ki, digər alınma şəkilçilər dilimizdə yeni sözlər yarada bilmədiyi halda *–ıstan*[4] şəkilçi morfemi bunun əksinə olaraq yeni sözlər əmələ gətirir. Məsələn, "Kapitan Yusifov sözünün bitirib rəisin qarşısına kiçik bir fotoşəkil qoyaraq dedi: Artıq Gürcüstanın lazımi orqanları ilə əlaqəyə giriblər" [1, s.267]. *–ıstan* şəkilçi morfemi dilimizdə yeni toponimlərin yaranmasında olduqca yüksək məhsuldarlıq nümayiş etdirir.

*–ış*[4] hərəkəti adlandırmaq üçün istifadə olunan bu şəkilçi morfem Azərbaycan dilinin bütün dörlərində aktiv funkionalma xüsusiyyətinə malik olmuşdur. Orxon abidələrində, Mahmud Kaşğarinin "Divani-lüğət-it türk" əsərində bəhs olunan şəkilçi ilə düzəlmiş leksik vahidlərə rast gəlinir. Lakin şəkilçi morfemin funksionallaşma dinamikasını izlədikdə şahidi oluruq ki, qədim dövrlərə nisbətən bəhs edilən morfem müasir dildə daha inensiv şəkildə reallaşır. Əsasən antroponimlərin yaranmasında iştirak edir. Məsələn, *Nuruş, Gülüş, Dönüş* və s.

*–çı*[4] bəhs olunan şəkilçi morfem ümumişlək sözlərə artırılaraq əsasən peşə, sənət adları əmələ gətirməyə xidmət göstərir. Bu şəkilçi morfem də qədim dönəmlərdən Azərbaycan dilində reallaşmaqdadır. "Kitabi-Dədə Qorqud" dastanında, "Şühədnamə" də şəkilçi ilə düzəlmiş leksik vahidlərə rast gəlinir. Onomastik sistemdə isə, əsasən etnonim və toponimlərin yaranmasında fəallıq nümayiş etdirir.Məsələn, "İstanbulda Mülk-ül Hüdayünün "Çinçi" deyilən bir məhlədə yerləşdiyini öyrəndim". Burada bəhs olunan şəkilçi morfem məhəllə adının yaradılmasında iştirak etmişdir. [5, s.120].

*–an*[2] şəkilçisi Azərbaycan dilindəki zaman və vəziyyət bildirən şəkilçilərdən biridir. Bu şəkilçi əsasən sözün mənasını dəyişdirərək müxtəlif zaman və şəkil strukturlarını yaradır. Onomastik vahidlərdə əsasən toponimlərin yaranmasında iştirak edir. Lakin o qədər də məhsuldar morfem sayılmır. Qərbi Azərbaycandakı Qafan şəhərinin adını, Quba rayonundakı *Alpan* kəndinin adını nümunə kimi göstərə bilərik. *Şahsevən* etnonimin və toponiminin adında da bu morfem reallaşmaqdadır.

*–ş*. Azərbaycan dilindəki **"-ş"** şəkilçisi, əsasən, sifət və feil formalarını yaratmaqda istifadə olunur və dilin morfoloji quruluşunun vacib tərkib hissəsidir. Bu şəkilçinin istifadəsi çox genişdir və bir neçə funksiyanı əhatə edir. Azərbaycan dilindəki **"-ş"** şəkilçisi çoxşaxəli funksiyaya malikdir və həm feil, həm də sifət formalarının yaradılmasında mühüm rol oynayır. Bu şəkilçi feilin mənasını dəyişdirərək, hərəkət edən şəxsin və ya fəaliyyətin keyfiyyətini, xüsusiyyətini bildirir. Həmçinin, feilin hərəkətinin təkrarlanmasını, müntəzəmliyini və ya keçmişdəki şəxsiyyətləri göstərmək üçün də geniş şəkildə istifadə olunur. Bu cür şəkilçilərin tətbiqi, Azərbaycan dilinin zəngin morfoloji quruluşunu və ifadə imkanlarını artırır. Dilimizin onomastik sistemində bəhs olunan şəkilçi morfem əsasən əzizləmə semantikası daşıyan antroponimlərin yaranmasında iştirak edir. Məsələn, *Babaş, Nənəş, Lələş* və s.

*–qın(ğın).* Azərbaycan dilindəki "qın//ğın" şəkilçisi geniş istifadə olunan və xüsusilə felə aid olan bir şəkilçidir. Bu şəkilçi əsasən felin və ya isimlərin mənasını dəyişdirərək, onların müxtəlif qrammatik funksiyalarını ifadə edir. Onomastik sistemdə əsasən antroponimlərin və təxəllüslərin yaranmasında iştirak edir. Sevimli şairimiz Səməd Vurğunun təxəllüsü buna bariz nümunədir.

*–ə*. Azərbaycan dilindəki *"-ə"* şəkilçisi çoxyönlü və müxtəlif funksiyalara malikdir. Bu şəkilçi, əsasən isim və feil köklərinə əlavə edilərək müxtəlif qrammatik mənalar və strukturlar yaradır. Azərbaycan dilindəki "-ə" şəkilçisi, həm yönlük hal, həm də məkan, şəxsə bağlılıq, vəzifə və ədat funksiyaları ilə zəngin bir struktura malikdir. Bu şəkilçi, cümlələrdə müxtəlif istiqamətləri, münasibətləri və hərəkətlərin niyyətini ifadə etməyə imkan tanıyır. Dilin daha funksional və ifadəli olmasını təmin edir və həmçinin, Azərbaycan dilinin zəngin qrammatik quruluşunu nümayiş etdirir. Məsələn, "*Səlimə* adlı gözəl, ağıllı və mədəni həyat yoldaşı, on iki yaşlı Valeh adlı oğlu və on yaşlı *Aynurə* adlı qızı var idi" [2, s.78]. Gördüyümüz kimi, *–ə* morfemi əsasən qadın adı bildirən antroponimlərin yaranmasında iştirak edir.

*–ca*[2] "Qədim türk dillərinin geniş işlək dairəsinə malik olan *çak* morfemi leksik vahid kimi işlənməsinə baxmayaraq, müxtəlif şəkilçilər istiqamətində desemantikləşməyə uğramışdır" [6, s.80]. Nümunə: Bahar *Daçlıcada* quzu otarırdı [10, s.27].

*–ar*[2.] şəkilçi morfem qədim dövrlərdən kifayət qədər işlənmə tezliyinə malik olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanlarında, S.Təbrizinin əsərlərində, M.Kaşğarinin "Divanü-lüğət-it türk" əsərində bu feillə yaranmış leksik vahidlərə rast gəlinir. Azərbaycan dili ilə bərabər digər türk dillərində də aktiv

şəkildə funkionallaşır. Türk dilləri ilə müqayisədə Azərbaycan dilində qismən arxaikləşmiş şəkildə reallaşır. *–ar,–ər* şəkilçi morfemi ehtimallara görə "er//ermek" feilindən törəmişdir. Bəhs olunan şəkilçi əsasən antroponimlərin yaranmasında intensivlik göstərir. Məsələn, *Sevər, Gülər, Yetər, Yaşar, Anar* və s.

**Nəticə:** Azərbaycan dilində düzəltmə onomastik vahidlər, dilin inkişafı, mədəniyyətin dəyişməsi və sosial ehtiyacların qarşılanması məqsədilə formalaşır. Onlar dilin morfoloji və semantik imkanlarını genişləndirir, eyni zamanda milli kimliyi və tarixən mühüm olan anlayışları əks etdirir. Bu vahidlər dilin zənginliyini artırmaqla yanaşı, müxtəlif sahələrdə –coğrafiya, tarix, mədəniyyət, ticarət və s. müasir və uyğun adlar təqdim edir. Dildəki onomastik vahidlərin yaranmasında apelyativ leksik vahidlərin yaranmasında istifadə olunan sözdüzəldici morfemlərin böyük əksəriyyəti iştirak edir.

## Ədəbiyyat siyahısı


1. Elatlı E. Cəhənnəmdən gələn səs. –Bakı: TEAS Nəşriyyat evi, 2017.
2. Elatlı E. İtmiş qızın axtarışı /–Bakı: MBM-R, 2009.
3. Elatlı E. Pəncərədə görünən kölgə / –Bakı: Qanun Nəşriyyatı, 2015.
4. Əfəndiyev İ. Körpüsalanlar. / Seçilmiş əsərlər, 3 cilddə. 1 c. –Bakı: Avrasiya Press, 2005.
5. Əşrəfov Ə. Solğun. –Bakı: Teas Press, 2023.
6. Hüseynov Ş. Türk dilərində şəkilçilərin törəmə yolları. –Bakı: Zəngəzurda, 2019.
7. İsmayıllı A. İşğaldan azad olunmuş Ağdam rayonu ərazisində olan bəzi toponimlər haqqında. / Onomastika məsələləri.–Bakı: 2023.
8. Qurbanov A. Azərbaycan onomalogiyasının əsaslar. 2 c. –Bakı: 2019, 432 s.
9. Mahmudova Q. Müasir türk dillərində düzəltmə söz. Bakı: Elm və təhsil, 2022
10. Mir Cəlal Bir gəncin manifesti /– Seçilmiç əsərlər. –Bakı: 2008.
11. Атарщикова Т.Н. Морфологические явления в словообразовательном процессе отономастической лексики // Современные проблемы науки и образования. – 2012. – № 6. ; URL: https://science-education.ru/ru/article/view?id=7703 (дата обращения: 09.01.2025).
12. Хохлачева, В.Н. К истории отглагольного словообразования существительных в русском литературном языке нового времени. / В.Н. Хохлачева. –Москва: Наука, 1969. - С.351.
13. Щерба. Л.В. Современный русский литературный язык. Избранные работы по русскому языку. – Москва: 1957.


***Аббасбейли Валиде***

### *Функциональность морфологического способа в ономастической системе Азербайджанского языка*

### *Аннотация*


Создание слов в ономастических единицах представляет собой особую область языка и изучается как сфера, определяющая имена людей, географических мест, фамилии, названия организаций и водоемов. Ономастика – это раздел лингвистики, который занимается исследованием значения, процесса происхождения, формирования и социальных функций имен. Эта область охватывает как лингвистику, так и культуру. Создание слов в ономастических единицах изучает процессы создания и использования этих имен. Проблемы ономастики давно привлекли внимание ученых, и эта тема остается актуальной и в настоящее время. Ономастика, являясь частью лингвистики, тесно связана с проблемами лексикологии, семантики, словообразования и грамматики.

Ономастические единицы создаются с использованием различных методов словообразования. Для появления новых онимов в языке используются различные способы словообразования, среди которых наиболее продуктивным является именно морфологический способ. В статье рассматриваются ономастические единицы, образованные с помощью морфологического метода в современном азербайджанском языке, а также процесс их функционализации в языке.


***Ключевые слова:*** *морфологический, ономастический, способ, словообразование, процесс.*

***Abbasbeyli Valide***

***Functionality of the morphological method in the onomastic system of the Azerbaijani language***

***Abstract***

Word formation in onomastic units represents a special area of language and is studied as a sphere that determines the names of people, geographic locations, surnames, names of organizations, and water bodies. Onomastics is a branch of linguistics that deals with the study of the meaning, origin, formation, and social functions of names. This field encompasses both linguistics and culture. Word formation in onomastic units studies the processes of creating and using these names. The issues of onomastics have long attracted the attention of scholars, and this topic remains relevant today. Onomastics, as part of linguistics, is closely related to the problems of lexicology, semantics, word formation, and grammar. Onomastic units are created using various methods of word formation. Different word formation techniques are employed to create new onims in the language, among which the most productive is the morphological method. This article discusses onomastic units formed through the morphological method in modern Azerbaijani and the process oftheir functionality in the language.

***Key words:*** *morphological, onomastic, method, word formation, process.*

***Çapa tövsiyə edən: AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

***Rəyçilər: dosent Q.Mahmudova***